# UNUDULMAZ ŞAİR



Yeganə XANLAROVA

Doğmaların vəfatı, dünyadan köçməsi xəbəri kədərlə qarşılanır, çox acı olur. Mükəmməl yaradıcılıq irsi olan Fikrət Sadığın şəxsiyyətindəki bütövlüyə, böyüklüyə hörmət edirdim. Hər dəfə haqqında çap etdirdiyim yazılarımı ona göstərəndə sevinərdim ki, məqaləni bəhanə edib şairin görüşünə gedəcəyəm, səmimi, müdrik, maraqlı söhbətlərinin şahidi olacağam. Amma bundan sonra onu qəlblərdə axtaracağıq... Çünki şairin vəfatıyla bağlı aldığımız xəbər təkcə mənim, yaxınlarının deyil, həm də poeziya sevərlərin kədəri sayıla bilər.

Azərbaycan poeziyasının görkəmli şairi, publisist, ssenari müəllifi, kino redaktoru Azərbaycanın Əməkdar mədəniyyət işçisi və Azərbaycan Dövlət mükafatı laureatı Fikrət Sadıq 86 yaşında vəfat etdi.

Fikrət Sadıq (Sadıqov Fikrət Abbas oğlu) 1930-cu il mayın 30-da Şamaxı şəhərində anadan olmuşdur.

Fikrət Sadıq 1938-ci ildə Şamaxıda ibtidai təhsili bitirdikdən sonra Kürdəmirdə natamam orta təhsil almışdır (1938-1944). 1944-1946-cı illərdə Bakıda 3 saylı Bayıl sənət məktəbini bitirmiş, 1946-cı ildən 1952-ci ilə kimi Gəncə neft kəşfiyyatının Naftalan qəsəbəsindəki və Tərtərdəki idarələrində elektrik mühəndisi işləmişdir. Daha sonra ordu sıralarında xidməti borcunu yerinə yetirib (1952-1954) Bakıya qayıtmışdır. Burada Bakı Kinomexaniklər məktəbini oxumuş (1954-1955) və eyni zamanda “Azərbaycan” və “28 May” kinoteatrlarında kinomexanik kimi çalışmışdır. Sonra o yenidən yarımçıq qalmış təhsilini tamamlamaq üçün Kürdəmirə gəlmiş, gündüz dəmir yolu stansiyasında elektrik montyoru işləyə-işləyə axşamlar oxuyub orta məktəbi bitirmişdir (1955-1956).

Şairin “Bahar” adlı ilk çap olunan şeirindən sonra 1956-cı ildə Azərbaycan Dövlət Universitetində (indiki BDU) tələbə olduğu zaman “Gənclik nəğmələri” almanaxında “Artist” və “Ana əli” adlı poetik əsərləri işıq üzü görür.

Fikrət Sadıq 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsini bitirmişdir (1956-1961). Qeyd edək ki, şair universiteti bitirdikdən sonra Azərbaycan ədəbiyyatı kafedrasında baş laborant işləmişdir (1962-1966).

Yaradıcılığının ilk vaxtlarında Fikrət Sadığın bir sıra şeirləri “Yeni Şirvan”, “Kommunist”, “Ədəbiyyat və incəsənət”, “Azərbaycan gəncləri”, “Azərbaycan pioneri” və s. mətbuat orqanlarında çap olunmuşdur.



Fikrət Sadıq Şamaxıda Çuxuryurd kəndində müəllim və eyni zamanda “Yeni Şirvan” qəzeti redaksiyasında ədəbi işçi (1961-1962); Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında baş laborant (1962-1966); Azərbaycan Sovet Ensklopediyasının “Xalq maarifi” redaksiyasında elmi redaktor, ədəbi nəzarət redaksiyasında şöbə müdiri (1966-1968); Bakı “Gənclik” nəşriyyatı tərcümə şöbəsinin, həmçinin məktəbəqədər və azyaşlı məktəblilər şöbəsinin müdiri (1968-1974); Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında elmi-kütləvi və sənədli filmlər birliyi idarələrində baş redaktor (1974-1975) və Azərbaycan Yazıçılar Birliyində bədii ədəbiyyat təbliği bürosunun direktoru olmuşdur (1975-1987). 1987-ci ildən bu günə kimi Azərbaycan Yazıçılar Birliyində şeir üzrə məsləhətçi işləmişdir. Azərbaycan yazıçılarının VII-VIII qurultaylarında Azərbaycan Yazıçılar Birliyinin təftiş komissiyasının sədri, IX-X-XI qurultaylarında idarə heyətinin üzvü, qəbul komissiyasının və Şirvan filialının sədri seçilmişdir. 2005-ci ildən 2014-cü ilə kimi Sabir poeziya komitəsinin sədri olmuşdur. 2014-cü ildən isə həmin komitənin fəxri sədri idi.

1994-cü ildə “Məmməd Araz” və 1996-cı ildə isə “Rəsul Rza” ədəbi mükafatlarını almışdır.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti 29 may 1981-ci ildə Azərbaycan sovet ədəbiyyatı sahəsində xidmətlərinə görə Fikrət Sadığa anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq “Fəxri fərman” verib.

22 avqust 1986-cı ildə SSR Ali Sovetinin prezidiumu tərəfindən ədəbiyyat sahəsindəki xidmətlərinə görə şair “Əməkdə fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur. 28 dekabr 1986-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət heyəti tərəfindən “Əməkdar mədəniyyət işçisi” fəxri adına, 27 may 1991-ci ildə “Dünya öz işindədir” kitabına görə Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdçüsü idi.

Dissertasiya işimi yazarkən bildim ki, hələ uşaqlıqdan sevə-sevə baxdığım “Cırtdanın yeni sərgüzəşti” cizgi filminin müəllifi Fikrət Sadıq imiş. Bu cür ssenarilər, uşaqlar üçün yazdığı şeirlər kifayət qədərdir.

Şairin həyat, ömür, tale ilə bağlı düşüncələrində onun fikir karvanı daha uzaqlara yol alır, həyati predmet daxilində yeni mənalandırmalara aparır, bu mənalandırmalarda təbii elmi-dərki lirik-fəlsəfi qavrayış əvəzləyir. Bu qavrayış oxucuda yeni ovqat, yeni baxış, yeni nəzər yaradır. Bu mənada Fikrət Sadığın şeirlərində doğum və ölüm faktı üzərində apardığı bədii-fəlsəfi ümumiləşdirmə maraqlıdır. Şair mahiyyətcə əks qütblərdə dayanan bu təbiət hadisələrini birləşdirən məqamı tapıb, onun üzərində düşüncələrə dalmışdır.

*Tale belə kor olarmış,*
*Görəcəkli günüm varmış.*
*Bu dünya nə xarabaymış,*
*Gələn ağlar, gedən ağlar.*

Şairin həyat-ölüm fəlsəfəsi fiziki yaşam üzərində qurulmayıb. Fikrət Sadıq düşüncəsində mövcudluq hələ həyat demək deyildi. Həyat gərəkli olmaq, fəaliyyət deməkdir. Fransız filosofu Jan Jak Russonun dediyi kimi: “Yaşamaq nəfəs almaq deyildir, yaşamaq fəaliyyət deməkdir. Çox illər yaşamış insan deyil, çox şey hiss etmiş insan çox yaşamışdır”. Bu mənada şairin “Daşlar” şeiri fəaliyyətsizliyin, gərəksizliyin faciəsini açıqlayır.

*Yerin altında qalan,*
*Qaya olan,*
*Dağlardan dərələrə, düzlərə*
*Yuvarlanan*
*Daşların dərdi*
*Sığmır yerə-göyə:*
*“Niyə bizi görmürlər, niyə?*
*Niyə o biri daşlar kimi*
*Bizi də*
*Divara,*
*Qalaya,*
*Körpüyə*
*Hörmürlər, niyə?*
*Razıyıq, döşəsinlər*
*Lap ayaq altına.*
*Razıyıq, bünövrə olaq,*
*Düşək yerin ən alt qatına-*
*Təki yaşayaq”.*
*Yaşayıb, heç şeyə*
*Gərək olmamaq dərdi*
*Ölümdən də betərdi!*

Doğrudur, yaşamaq, yaratmaq, özündən sonra cild-cild kitablar qoyub getmək əsl yaşamaqdır... SİZ yaşayacaqsınız, Fikrət Sadıq...